**Azərbaycan Respublikası**
**Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası**

# QƏRAR № 10

Bakı şəhəri, "26" 09 2017-ci il

Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının sədrinin səlahiyyətlərini icra edən Rasim Vaqif oğlu Quliyevin sədrliyi ilə "Poster" MMC-nin şikayəti barədə Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının 21.06.2017-ci il tarixli 11 nömrəli Qərarına Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasında təkrar baxaraq

**MÜƏYYƏN ETDİ:**

"Poster" MMC şikayətində 2000-2009-cu illərdə Bakı şəhərində aparılan abadlıq işləri ilə əlaqədar demontaj edilmiş reklam yerlərinin onlara qaytarılması barədə müraciətlərinin Bakı Şəhər İcra Hakimiyyətinin Reklam və İnformasiya İdarəsi tərəfindən təmin olunmadığını bildirmişdir.

Cəmiyyətin bununla bağlı Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasına etdiyi şikayəti 04.10.2016-cı il tarixli 7 nömrəli qərarla təmin edilməmişdir.

Həmin qərardan edilmiş şikayətə Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasında 17. 01. 2017-ci ildə baxılaraq 2 nömrəli Qərarla Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasına, "Poster" MMC-nin şikayətinin bütün hallarının tam, hərtərəfli və obyektiv araşdırılması, nəticəsindən asılı olaraq qanuni və ədalətli qərar qəbul edilməsi tapşırılmışdır.

Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası 07.04.2017-ci ildə şikayətə baxaraq yenidən "Poster" MMC-nin şikayətini təmin etməmişdir.

Qərar onunla əsaslanmışdır ki, 17-18 il bundan əvvəl ayrılmış və icazə sənədlərinin müddəti həmin dövrdə bitmiş yerlərin qaytarılmasına dair Cəmiyyətin iddiası əsassızdır. Ötən dövrdə Bakı şəhərində aparılmış abadlıq və yenidənqurma işləri nəticəsində hazırda həmin küçələrin əksəriyyətində reklam daşıyıcılarının quraşdırılması üçün yerlər ümumiyyətlə qalmamışdır. Bakı şəhərində geniş yenidən-qurma işləri aparıldığından çoxlu sayda reklam qurğuları demontaj olunmuş, reklam şirkətlərini alretnativ yerlə təmin etmək mümkün olmadığından müqavilələrə, o cümlədən "Poster" MMC ilə olan müqaviləyə qarşılıqlı razılıq əsasında dəyişiklik olunaraq eyni kateqoriyalı yerlə təmin edilməsi öhdəliyi çıxarılmışdır.

Bundan başqa Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2017-ci il tarixli Fərmanına əsasən, 01 avqust 2017-ci il tarixdən etibarən açıq məkanda reklam daşıyıcısının yerləşdirilməsi səlahiyyəti yeni yaradılmış Azərbaycan Respublikasının

Dövlət Reklam Agentliyinə verildiyindən "Poster" MMC-nin müraciətinə Bakı Şəhər İcra Hakimiyyətində baxılması mümkün deyildir.

Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Prezidentinin 762 nömrəli, 03.02.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 7.3.3-cu bəndi rəhbər tutaraq

**QƏRARA ALINDI:**

1. "Poster" MMC nin şikayəti təmin edilməsin.

2. Azərbaycan Respublikası Prezidentinin 31.07.2017-ci il tarixli Fərmanına əsasən reklam daşıyıcılarının yerləşdirilməsinə icazənin alınması səlahiyyətləri, yeni yaradılmış Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinə verildiyindən "Poster" MMC-nin aidiyyəti üzrə həmin quruma müraciət etməsi tövsiyə edilsin.

3. Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının Katibliyi bu Qərarın bir nüsxəsini "Poster" MMC-yə və Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına göndərilməsini təmin etsin.

**Bakı Şəhər İcra Hakimiyyətinin**
**Apellyasiya Şurasının sədrinin**
**səlahiyyətlərini icra edən** **Rasim Quliyev**